*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2023, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 40-48* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2023.1.40*

# Gözün simvolik funksiyası: mifdən ədəbiyyata

**Vüsalə Qasımova**
Bakı Avrasiya Universiteti. Azərbaycan.
E-mail: animechuky@gmail.com

**Annotasiya.** Hər bir insan dünyanı öyrənmək prosesində beş duyğu orqanından istifadə edir. Bu mərhələ bütün canlılar üçün keçərlidir. Ətraf mühitlə ilkin tanışlıq "göz" fəaliyyətə başlayanda aktivləşir. Kainatın varlığı haqqında düşüncələr formalaşır. İnsan dünyanı bütövlükdə anlamağa çalışır. Bu baxımdan "göz"ün funksiyası dünyaya açılan pəncərə kimidir. Hiss olunanları vizual olaraq qavramaq hadisələrə və anlayışlara münasibətimizi müəyyən etməyə kömək edir. Məqalə mətninin əsas məqsədi "gözü" real səviyyədən ayırmaq və onu tədqiqata cəlb etməkdir.
Bu prosesdə ilk addım sözün tibbi etimologiyasını açmaqla başlayır. Nəticədə fizioloji qalıq kimi qəbul edilən hissə tarixi dövrlərin dəyişməsi nəticəsində yeni məna kəsb edir. "Gözün" simvola çevrilməsi metaforik köçürmə ilə əlaqələndirilir. Müxtəlif inanclar "göz"ə ilahi bir güc kimi istinad edirlər. Düşüncənin yaranmasının səbəbi Misir günəş tanrısı ilə bağlıdır. Günəş işığının "göz"ün işığı ilə eyni olduğuna inanılır. Sufi inanclarında "göz" qəlbin aynası kimi təsvir edilir. Qəzali, Mövlana və Yunus Əmrənin əsərlərindən nümunələr fikrimizi təsdiq edir. İnsanın mifoloji təfəkküründə "siklopik" obrazlar vasitəsilə "göz"ün mənfi mənada başa düşülməsi ağla gətirilir. Şərqdə və Qərbdə bu söz massonluğun əsas simvollarından biri kimi ünvanlanmış və tanınmışdır. Klassik və müasir düşüncənin təsvir gücü arasındakı fərq "göz" sözünün əhatə dairəsinin dəyişməsi ilə bağlıdır. Sözün simvolik mənası insan təxəyyülünün hüdudlarındadır. Nəhayət, müasir dünyanın tələbləri ilə bağlı ibtidai düşüncənin necə dəyişdiyinə diqqət çəkilir. Bu məqsədlə o, rəssam Rene Maqrittenin yaradıcılığına müraciət edir.
**Açar sözlər:** epifiz vəzi, qəlb gözü, kiklop, massonluq, Rene Magritt

**Məqalə tarixçəsi:** göndərilib – 23.02.2023; qəbul edilib – 13.03.2023

# The symbolism of the "eye": from myth to literature

**Vusala Gasimova**
Baku Eurasian University. Azerbaijan.
E-mail: animechuky@gmail.com

**Abstract.** Every person uses five senses in the process of understanding the world. This stage is valid for all living things. Initial familiarization with the environment is activated when the "eye" begins to function. Thoughts about the existence of the universe are formed. Human tries to understand the world as a single whole. From this point of view, the function of "eye" is like a window to the world. Visual perception of what is felt helps determine how we relate to events and concepts. The main goal of the text of the article is to separate the "eye" from the real level and involve it in the research.

The first step in this process begins with uncovering the medical etymology of the word. As a result, the part perceived as a physiological remnant takes on a new meaning as a result of the replacement of historical periods. The transformation of “eye” into a symbol is related to metaphorical transfer. Different beliefs approach the “eye” as a divine force. The reason for the formation of the thought is related to the Egyptian Sun God. It is believed that the light of the Sun is the same as the light of the “eye”. In Sufi beliefs, the “eye” is narrated as the mirror of the heart. The examples from the works of Ghazali, Movlana and Yunus Emre justify our opinion. In the mythical thinking of man, through the “Cyclopic” images, the understanding of the “eye” in the negative plane is brought to mind. In the East and in the West, the word was addressed and recognized as one of the main symbols of Freemasonry. The difference between the descriptive power of classical and modern thought is explained on the basis of the change in the scope of use of “eye”. The symbolic meaning capacity of the word is within the limits of human imagination. Finally, attention is paid to how primitive thinking has changed with the demands of the modern world. For this purpose, the work of the artist René Magritte is addressed.
**Keywords:** pineal gland, eye of the heart, cyclops, masonry, Rene Magritte

**Article history:** received – 23.02.2023; accepted – 13.03.2023

## Giriş / *Introduction*

Düşüncənin mətnləşməsi prosesində məna müəyyən sözlərlə ifadə edilir. Sözün mənanın qəlibinə çevrilməsi üçün mətnin ideyası bir sıra simvollar vasitəsi ilə strukturlaşdırılır. Bu simvollar işləklik baxımından konkret və mücərrəd mənanı daşıyan sözlərin kontekstində öz ifadəsini tapır. Mövzumuzla bağlı nəzərə çatdırmaq istədiyimiz əsas simvol – gözdür. Məqalənin məqsədi gözün simvolik ifadə dairəsininmərhələli şəkildə açılması üzərinədir. İlk olaraq yaddaş ilə əlaqələndirilən epifiz vəzinin “üçüncü göz” olaraq mənalandırılmasındakı mahiyyət açılır. Eyni zamanda hind inancında “acna” və “bindi”nin “üçüncü göz” kimi dəyərləndirilməsi, ibtidai düşüncənin ilkin ifadə forması olan mifik mətndə “təpəgöz”, “tək göz” obrazlarının gözü mənfi planda təqdimatı nəzərə çatdırılır. Təsəvvüfi inancda gözün daşıdığı məna yenilənməsi və irfani mərhələyə çatmaqda olan şəxsin gözü “hər şeyi görən göz”, “könül gözü” kimi dərk etməsi izah edilir. Son olaraq təsviri incəsənətdə və modern ədəbiyyatda gözün simvolik yükü üzərində dayanılır.

## Əsas hissə / *Main part*

### “Üçüncü göz” və epifiz vəzi

Epifiz vəzi beyin yarımkürələrinin altında orta beyin qapağının yuxarı nahiyəsi üzərində orta mövqedə yerləşir. Tibb elmi epifiz vəzini embrioloji qalıntı olaraq dəyərləndirir. Bu qalıntı məməlilər nəslinin fərqləndirici fizioloji xüsusiyyətini təşkil edir. Funksional mexanizmi ifraz etdiyimelatonin hormonu vasitəsi ilə 24 saat ərzində hərəkətləri tənzimləyən “bioloji saat”a çevrilir. Lakin melatonin hormonu cinsi yetkinliyin ləngiməsinə və ya prosesin zamanından öncə tamamlanmasına səbəb ola bilir. Yetkinlik çağına erkən keçid hipofunksiya, cinsi yetkinliyin ləngiməsi isə hiperfunksiya ilə əlaqələndirilir. İnsan beyninin transa keçməsi vəcd halı epifiz vəzinin hər hansı bir reaksiyaya məruz qalması ilə izah edilir. Bu vəzin elmə məlum olma tarixi 2000 ildən çoxdur. İllər keçdikcə tədqiqatçılar epifiz vəzinə müxtəlif şəkildə açıqlama verirlər. *“Epifiz vəzini ruhla bədənin qovşağı kimi qəbul edən Dekarta görə, gözlər real dünyada qəbul etdiklərini beyindəki liflər və ya bağlar vasitəsilə epifiz vəzinə köçürür”* [16, s.1-25]. De Qraff və Baldvin Spencer adlı iki anatomist 1886-cı ildəepifiz vəzinin retinal hüceyrələrə və kütlə kimi sferik

linzalara malik olduğunu kəşf etdilər. Bununla bağlı “üçüncü göz” və ya “intuisiya gözü” də adlandırdıqları bu vəzi iki xarici gözün mühüm xüsusiyyətlərini daşıyan “ibtidai daxili göz” olaraq təyin etdilər [26, s.87-89].

Epifizin “üçüncü göz” olaraq qiymətləndirilməsi informasiya qəbul etmə xüsusiyyəti ilə bağlıdır. Nikolay Petrova görə, *“Epifiz beynin vizual təpələrinə yaxınlaşır. Epifiz vəzi kristallar istehsal edir və onlarda beyin neyronlarının məlumatlarını saxlayır. Eyni zamanda epifiz vəzi daim fiziologiyanın ümumi sisteminə daxil edilir və lazım olduqda, kristallardan gələn məlumatlar geri oxunur, problemlərin həlli təmin edilir”* [29, s.29]. Epifiz vəzi illər ərzində göz olaraq rəsm edilib simvollaşdırılmışdır. Ruh ilə bədən arasındaki əsas rabitə mərkəzi olaraq qəbul edilmişdir. Yaddaşın xatırlama və unutma fəaliyyətləri epifiz vəzinə aid edilmiş, eyni zamandaruhun görən gözü kimi dərk edilmişdir. Bu düşüncə tərzi dini inanclarda gözün ilahi qatı ilə bağlı fikirlərin vüsət aldığı başlanğıc nöqtəsinə bir işarədir.

Ruh ilə bədən arasındaki enerjini bərpa etmək məqsədi ilə yoqların başçılığı ilə yoqa, müridlər vasitəsi ilə təkkələrdə dini ayinlər təşkil edilir. Bu ayinlərin bənzəri hindu ənənəsi üçün də keçərlidir. Enerjinin tənzimlənməsi üçün insanın bütün informasiya tutumu hər hansı kiçik bir bölgəyə yerləşdirilir. Enerjinin təmizlənməsi bu şəkildə təmin edilir. Bu ritual “çakra”nın köməyi ilə icra edilir. Əslində, burun, boğaz, əl, diş və digər bədən üzvlərinin çakrası da mövcuddur. Lakin biz “ajna çakrası” adlanan göz üzərində dayanacağıq. Çakra üç hissədən ibarətdir və bir-birlərinin üzərində yerləşmişdir (Şuşumna, Vacrini, Çitrini). “Acna çakra”sı bu şəkildə təsvir edilir, *“İki qaşın arasında və təsəvvüfdəki nəfs lətaifin olduğu yerdədir. Rəngi parlaq mavidir. Beyindəki epifiz vəzinə təsir edir. Görmə, intuisiya, psixi sağlamlıq, müdriklik və həqiqət ilə əlaqəlidir”* [23, s.108]. “Üçüncü göz” hind geyiminin ənənəvi sarilərinə uyğun taxılan “bindi”lər şəklində də özünü göstərir. *“Bu aksesuar Hinduizm inancında ruhun insan bədənindəki yerini və üçüncü gözü simvollaşdırır. Meditasiya edərək üçüncü (müdriklik) gözlərin açılmasını ümid edən hindli qadınlar bindi taxaraq çıxdıqları mənəvi səyahəti simvollaşdırmaq istəməkdədirlər”* [21, s.269].

Maraqlıdır ki, “üçüncü göz”ün açılmasına xidmət edən ritualların əksinə, mifoloji təsəvvürlər iki gözlü insanı tək gözlü varlığa çevirir. Bununla bağlı yaranan mifoloji mətnlərdə personajın gözlərinin çıxarılması hadisəsinə də təsadüf edilir.

**Mifik düşüncədə “Tək göz” və ya “Təpəgöz” obrazı:**

İbtidaidüşüncənin ilkin forması sayılan mifoloji mətnlərdə gözlə bağlı ən qədim mif Misir əfsanəsi olan Horos ilə bağlıdır. *“Mifologiyaya görə, Günəş tanrısı Osirisi öldürən qaranlıq tanrısı Setdən qisas almaq istəyən Osirisin oğlu Horusun sol gözü əmisi tərəfindən parçalanır. Elmlərin və tibb elminin banisi Thot Horusun kor gözünün parçalarını toplayır. Amma onun bir hissəsini tapa bilmir. O, bu çatışmayan parçanı öz sehrli gücü ilə tamamlayır və Horusun gözünün görmə funksiyasını ona geri qaytarır”* [12]. Mifdən qaynaqlanan gözün çıxarılması motivibir sıra mətnlərin süjetinə interpretasiya edilmişdir. Məsələn, Nizami Gəncəvinin “Yeddi gözəl” poemasında “Xeyir və Şər” hekayəti bu motiv üzərində qurulub:

*“...Xəncəri çırağa çaldı, qanmadı,*
*Çırağı söndürdü, qəlbi yanmadı.*
*Nərgizi eylədi gül rəngində al,*
*Cüt gövhər qopardı tacdan o dərhal...”* [8, s.228].

Hekayət Xeyrin aldadılaraq gözlərinin çıxarılması haqqındadır. Eyni motiv qədim abidəmiz “Koroğlu” eposunun süjet xəttində də özünü göstərir: *“Əmr etdi, cəllad Alı kişinin gözlərini çıxartdı. Bir dəfə uf da eləmədi. Elə ki, cəllad işini qurtardı, Alı kişi ayağa qalxıb dedi:*

- *Həsən xan, insan üçün hər naz-nemətdən şirin şey gözdü. Sən məni ondan binəsib elədin"* [18, s.50]. Şübhəsiz ki, Rövşənə Koroğlu adının verilməsi məhz Alı kişinin gözlərinin çıxarılması ilə bağlıdır.

Dünya xalqlarının mifologiyasında "Tək göz" və ya "Təpəgöz" obrazları xaotiktiliyi təmsil edirlər. İnsan və bədheybətlərin eyni mühitdə yaşamaları mədəni çöküşə dəlalət edir. Qaraçay – Malkarların Nart dastanlarında "Tək göz"lü varlıqlar yer alır. Xarici görünüşləri bu şəkildə təsvir edilir. *"Emegen bədheybət olduğu üçün təbii olaraq anormaldır. Emegen əsas xüsusiyyətlərinə görə insana bənzəyir. Dik durur, iki qolu, iki ayağı var, insanlarla eyni dildə danışır, insanlar kimi düşünür. Alnında bir gözü var"* [17, s.115]. Digər nəhəng tatar əfsanələrində "Dəmir Bədən" adı ilə tanınır. Onun dünyaya gətirdiyi canlılar təkgözlüdür. "*Tus (Dəmir Bədən) torpaq sahibidir. O, bədəni ilə insanları döyə və öldürə bilər. O, qaçırdığı qadınları əsir götürür. Onlarla evlənir, onlardan təkgözlü uşaqları olur, onları işlədir"* [15, s.55]. Bolqar əfsanələrində isə Qarakocul və ya Qarakonco adlı bir varlıqdan bəhs edilir. "*Mifoloji əfsanələrdə Qarakoncul tüklü, iribaşlı, quyruqlu və buynuzlu kimi təsvir edilir. Bəzi miflərdə onun təkgözlü və təkayaqlı olması qeyd edilir"* [10, s.162].

Ortaq cəhətləri "Tək göz" olan varlıqlara, *"İspaniyanın Kantabriya nahiyəsinin mifologiyasında ağaclara, su hövzələrinə və bitkilərə zərər verən "Ojankanu", balkan mifologiyasında başı canavar, dişləri dəmir, bədəni insan, ayaqları at olan "Psoglav", slavyan mifologiyasında "Likho" adı ilə tanınan yaşlı qadın, hind mifologiyasında isə başı və bədəni olmayan, qaşı, gözü, qulağı, burnu qarın hissəsində təsvir edilən "Kabandha"dır"* [22]. Nəhəng və bədheybətlər terminologiyada "Kiklop", "Balor", "Arimaspi", "Təpəgöz" adı ilə bilinir.

Azərbaycan ədəbiyyatında ilk və ən çox tanınan kiklopik varlıq "Təpəgöz"dür. *"Bu ət topasının pərdəsi yarıldı, içindən bir oğlan uşağı çıxdı. Gövdəsi adam gövdəsi, təpəsində bir gözü vardı"* [13]. "Təpəgöz" 1815-ci ildən etibarən yunan müəllifi Homerin "Odisseya" eposundakı kiklopik varlıq olan Polifemlə müqayisəli tədqiqata cəlb edilmişdir. İlk dəfə bu haqda alman alimi Fon Ditz fikir bildirmiş, Şərq və Qərb arasında baş verən təsirlənmənin şəraiti haqqında məlumat vermişdir. Tədqiqatçı Əli Sultanlı "Kitabi-Dədə-Qorqud" və qədim yunan dastanları" adlı kitabında hər iki nəhəng arasındaki oxşar və fərqli cəhələri vurğulamışdır. "*Təpəgöz dağda əyləşmişdir. Polifemin də dağda öz mağarası var. Basat əvvəl Təpəgözün gözünü çıxarır. Odissey də belə hərəkət edir. Təpəgöz mağarada olan qoyunları çıxarmaq yolu ilə Basatı tutmaq istədiyi kimi, Polifem də sürünü bir-bir yoxlayıb çıxarmaq qərarına gəlir"* [20, s.51]. Tədqiqatın əsasında fərqlənən cəhətlərin çoxluğu qeyd edilmişdir. Anqlo-saksonların ən qədim eposu sayılan və yazılma tarixi dəqiq məlum olmayan "Boevulf" abidəsində bütün xalqın həyatını təhlükə altına alan "Qrendel" kiklopik obrazlara bir nümunədir: *"Qrendel ilə Təpəgöz ölümsüz, ox sancmaz, və qılınc kəsməzdir. Hərəsində bir zəif nöqtə var: Təpəgözün gözü, Qrendelin sağ qolu. Təpəgöz və Qrendelin anası ikisi də öz qılıncı ilə başları kəsilir*" [6, s.19].

Nəhənglər dünyasının qaranlıq və barbarlıq təcəssümü olması mifoloji düşüncə tipi ilə əlaqələndirilə bilər. İlk mətnlərin məzmunundakı dualizm, qorxu və sevincin eyni anda mövcudluğu ideyasına bərabərləşir. İbtidai insan təfəkkürü, təbii fəlakətləri nəhəng və öldürücü cisimlər şəklində dərk etmiş, nəhənglərin cismani quruluşunu adi insanlardan fərqli şəkildə təsvir etmişdirlər. Nəticədə, bir çox kiklopik obraz pessimist və xaotik düşüncənin modern mətnlərə sirayət etməsinə şərait yaratmışdır.

**Təsəvvüfi dünyagörüşün də "Könül gözü" anlayışı:**

"Göz", "qəlb" kimi fizioloji bütövlüyümüzü təmin edən orqanlar dini mətnlərdə tibbi mənalarını itirərək mənəvi cəhətdən yeni məna çaları ilə yüklənirlər. İlk olaraq "Qurani-Kərim"də "bəsirət" məfhumuna diqqət yetirək. Büşra Acaroğlu sözün lüğətdəki terminoloji mənasını bu şəkildə qeyd edir: "*Lüğətdə ehtiyatlılıq "görmək, bilmək, görmə duyumu, göz, dərs, dəlil" mənalarını, "qəlb gözü, həqiqəti dərk etmək qabiliyyəti, intuisiya" mənalarını ehtiva edir"* [2, s.4].

Qəlb ilə əlaqələndirilən və sözün məna yuvasına çevrilən bu anlayış, nəzəri və əməli cəhətdən geniş mənaya malikdir. Sevgi, nifrət, vicdan və mərhəmət kimi insani hisslərin daşıdığı məna dini mətnlərdə metaforik köçürmə ilə təsvir olunur. "Könül" və "göz" birləşərək "könül gözü" olaraq sabitləşən frazeolji birləşməni yaratmışdır.

Təsəvvüfi düşüncədə bu məna tutumuna tez-tez təsadüf edilir. Tədqiqatçı Nurol Əbubəkirov Qəzalinin təsəvvüfi görüşlərində "könül gözü" ifadəsini bu şəkildə açıqlamışdır: *"İnsan qəlbində maddi gözün nöqsanlarından uzaq olan daxili göz (qəlb gözü) vardır. Bu, nur adına daha layiqdir və bəzən ağıl, bəzən ruh, bəzən də insan ruhu adlanır. Bu izahatdan sonra əl-Qəzali qeyd edir ki, sözügedən məlumat mənbəyi üçün işlədilən müxtəlif ifadələri bir kənara qoymaq lazımdır, çünki terminlərin çoxluğuna görə mənaların çox müxtəlif olacağı düşünülür və o, çox açıq şəkildə bildirir ki, yuxarıda qeyd olunan terminlər eyni məna daşıyır. Onun fikrincə, ağılı uşaqdan, dəlidən, heyvandan ayıran qəlbdəki bu gözdür. Halbuki xalqın (ictimai) dərk və təsvirinə uyğun olaraq onu ağıl adlandırır. Maddi, yəni bədən göz qüsurlarından təmiz olduğu üçün ağıl nur adlandırılmağa daha layiqdir"* [1, s.22]. Təsəvvüfdə haqq və həqiqət yolunda doğru bir şəkildə irəliləmək Hz. Mövlanə üçün maddi dünyada dəyər verdiyi əsas dünyəvi istiqamətlərdən birini təşkil edir. Bu yol təbiət qanunlarının dərki işığında fəaliyyət göstərən daosizm təliminin əsas prinsipi ilə səsləşir. Daosizmdə yol, həyatı təbii bir mühitdə yaşamağa bərabərdir. Təsəvvüfi düşüncədə isə nəfsin bütövlüyü, vicdani təmizlik, qəlbin doğru yolu tapa bilməsi, kamil insanın yetişməsindəki əsas ünsürlərdəndir. Hz. Mövlanənin "Məsnəveyi-şərif" əsərindən gətirilən nümunədə "könül gözü" bu şəkildə ifadə edilir:

*"Çox insanlar var ki, gözləri açıqdır, amma qəlbləri yuxudadır.*
*Amma qəlbi oyaq olanın baş gözü yuxuda olsa belə, qəlbində yüzlərlə göz açılır..."* [28, s.7]

"Könül gözü" ifadəsinin maddi aləmdəki qarşılığı basar, mənəvi aləmdə isə bəsirətdir. Maddi aləmdə sahib olduğumuz gözlər ətraf mühit ilə tanışlıq, dünyanı rəngləri ilə birlikdə dərketmə vasitəsi olduğu halda, mənəvi aləmə açılan göz daxili gözəllik, kin, nifrət, paxıllıq kimi mücərrəd anlayışları duymaqda köməkçi rolunu öz üzərinə götürmüşdür. Təsəvvüfi dünyagörüşündə "könül gözü" ifadəsinə müxtəlif söz birləşmələri şəklində də təsadüf edilmişdir; "*Mütəsəvvüflər qəlbin, insan bədəninin zahiri aləmi görən iki gözündən fərqli olaraq, daxili aləmi görən iki gözü olduğunu qəbul edir və ona eynül-qəlb, dideyi-can, çeşm-i batin, mərifət gözü və qəlb gözü olaraq adlandırılır"* [25, s.256]. Bu ifadənin müxtəlif variantları ilə qarşılaşmaq mümkündür. Sinonim kimi qəbul edilən can, qəlb, könül sözləri "can gözü", "qəlb gözü" kimi söz birləşmələri şəklində də istifadə edilir. Bu zaman sözlər dəyişsə də, cümlənin məna tutumu sabit qalır. Yunus Əmrə Divanında gətirilən aşağıdakı nümunədə bu aydın şəkildə görünür:

*"...Çünki daşın murdar olanda nur səninlə olsun*
*Könlün gözü yatarkən nur səninlə olsun*

**********

*...Qəlb gözü anı gördü, dil andan xəbər verdi*
*Qəlb içində oturdu könlümü 'ərş eylədi'..."* [25, s. 257].

Tarixi qaynaqlara əsasən, xristianlığın sütunu olan Hz. İsa gözü insanın daxili aləminə çevrilmiş, vizuallığı təmin edən vasitə hesab edir. Eyni zamanda XVIII əsrdən etibarən gizli fəaliyyət göstərən, fəlsəfi-etik hərəkat kimi tanınan massonluğun əsas atributik işarələrindən biri də "Hər şeyi görən göz"dür:*"Hər şeyi görən göz" dini təhsilin başlanğıcından etibarən ilahi varlığın simvolu olmuşdur... qədim ritualistlər bu simvolu günəşin, ayın, ulduzların və kometlərin nəzarəti ilə əlaqələndirirdilər. Masonluqda hər şeyi görən göz Kainatın Böyük Memarının gözüdür"* [9,

s.50]. Gözün mənfi auraların dəf edilməsi məqsədi ilə istifadəsinə də təsadüf edilir. Əsasən gözün bir pəncərə olduğuna inanılmış, optimist və ya pessimist düşüncələrin əsas mərkəzi kimi qəbul edilmişdir. Məhz bu mənfi düşüncə və niyyətlərin qarşısını almaq üçün, türk və altay xalqlarının inanclarında "Göz muncuğu" qoruyucu simvoldur. *"Göz muncuğuna qarşı inancın ilk olaraq gözə gözlə cavab vermək və gözü təqlid etmək düşüncəsindən yarandığı təxmin edilir. Mavi muncuqları evlərin, nəqliyyat vasitələrinin, heyvan və heyvan sığınacaqlarının, bitki və çiçəklərin, tarlaların girişlərinə də asmaq olar. Pis göz asıldığı yerlərdə toxunulsa, bəd nəzər muncuğunun pis gözləri özünə çəkdiyi üçün çatlayacağına inanılır"* [5, s.81].

Totemik inancın ifadəsində tətbiq edilən simvola sənətin müxtəlif sahələrindəmüraciət edilir. Jale Yılmabaşarın yaradıcılığında "göz" şans və müvəffəqiyyətin mənbəyi kimi təqdim edilir. Eyni zamanda *"Rəssamın bilavasitə göz simvolundan istifadə etdiyi ən mühüm əsərlərindən birini Koç Holdinq binasında və Mətbuat saytının İstanbulda girişindəki lövhələrdə görmək olar. Həm binaların, həm də ərazinin girişindəki lövhələrdə təsvir edilən gözlər diqqəti pis gözə yönəldir"* [19, s.1846]. ABŞ-ın pul vahidi üzərində təsvir edilən göz rəsm əsərlərinin əsas təsvir simvollarından birinə çevrilir. *"1525-ci ildə Pantromon tərəfindən rəsm edilən "Emmausda axşam yeməyi" adlı tabloda İsanın başı üzərində, 1789-cu il tarixli Cin Jaques-François Le Barbierin iki ədalət mələyinin arasında, 1794-cü ildə "Panoptikon" həbsxanasının loqosu olaraq təyin edilir"* [11].

**Modern düşüncədə və sənətdə gözün simvolikası**

Mövzuya fəlsəfi yöndən yanaşdığımız zaman postmodernizmin mətnlərdəki hakimiyyəti ilə birlikdə epistimologiyada həqiqət anlayışının orbiti dəyişir. Uilyam Ceymsin həqiqətə qatdığı yenilik, dinamik həyatın içərisində insani tələbatları qarşılayan düşüncələrlə bağlıdır. Yəni həqiqət tək deyil və subyektiv xarakterə malikdir. Bu düşüncələrə istinadən rasionalizmin düşüncə çərçivəsini genişlədən dialektik Schuon, həqiqəti düşünməklə kifayətlənmək yerinə, onu görməyin vacibliyindən söz açır. Görmək üçün isə metafiziki aləmin mərkəzində yerləşən mənəvi "gözə" ehtiyac duyulduğunu qeyd edir. "*Mən koram və bu dünyaya aid heç nə görə bilmirəm; lakin Ali Varlıqdan gələn nur mənim qəlbimi işıqlandırır və mənə görmə imkanı verir, çünki qəlbin gözü (Chante Ista) hər şeyi görür. Qəlb, tam ortasında Böyük Ruhun (Vakan Tanka) mövcud olduğu bir ziyarətgahdır. Hər şeyi görən və Onu görməyə imkan verən Böyük Ruhun bu gözüdür. Qəlb sərtləşəndə Böyük Ruh görə bilməz və belə cəhalət içində ölsən, ruhun Böyük Ruha qayıda bilməz. Böyük Ruhun mövcud olduğu Ürəyin Mərkəzini bilmək üçün təmizlənmək və yaxşı olmaq və Böyük Ruhun öyrətdiyi kimi yaşamaq lazımdır. Bu mənada Kainat təmizlənmiş insanın Qəlb kasasındadır (Çante Oqnaka)"* [7, s.261].

İncəsənətin təsvir gücü "göz"ə daha fərqli bir planda, sürreal məna qatı əlavə edir. Bu, simvolun yaradıcılıq müstəvisində dəyərləndirilməsinə əsas verir. Sürrealist rəssam Rene Magrittenin 1929-cu il tarixli "Saxta ayna" adlı tablosunda gözün sadəcə birini təsvir etmişdir. Rəsmin daşıdığı məna gözün görmə qabiliyyətinin sərhədləri ilə əlaqələndirilə bilər. Dünyanı iki qütbə bölən rəssam gözün görə bilmədiyi bir dünyadan bəhs edir. Bu rəsm edilən gözün əsasında duran hekayə ilə bağlıdır. Sürrealist təfəkkür gözün hər şeyi görmə qabiliyyətinə pərdə çəkir. Rəsmlə yanaşı, poeziya sahəsində də gözə fərqli məna qatı əlavə edilir. Hər şeyi görən və müşahidə edən göz, Bəxtiyar Vahabzadənin "Gözün dili" şeirində kommunikativ ifadə vasitəsinə çevrilir:

*"Gözdən hansı qəlbə dağlar çəkilməz?*
*Gözün dediyini dil deyə bilməz.*
*Həm incə, həm dərin dili var gözün...*
*...Bu dil müəmmadır, bu dil çətindir,*
*Bu dillə dinəni bu dillə dindir"* [4].

“Göz”ün görmə xüsusiyyətini arxa plana keçirən Elvin İntiqamoğlu “Xoş bəxt” adlı şeirində gözün aparıcı funksiyasını yaddaş ilə əvəz edir:

*“....Gözlərim kor olur, qulaqlarım kar,*
*Bircə ayağımın göz yaddaşı var:..”* [14, s.12].

Sürreal ifadə üslubunda “göz”ün yeni məzmunu Anna Filipin “Bir göz qırpımı” romanında personajın nitqində bu şəkildə əks olunur: *“Sənə on gözlə baxmaq istəyirdim, hərəkətlərini, baxışlarını gözlərimə yığardım”* [3]. “Göz”ə unutqanlıq missiyasını yükləyən Sema Kayqusuz, “Yerə tökülən dualar” romanında təsvir etdiyi personajı dünyaya tək gözlə baxmağa vadar edir. Bu ağrılı prossesi təhkiyəçi: *“Oğlanın sağ gözü hələ ki, açılmamışdı. Bəlkə də buna görə, o, yola düşməzdən əvvəl bütün ömür yolu sağ gözünün görə bildiyi çərçivədə xəyali idi. Dünyaya gəldiyi yer haqqında bir çox təffərrüatı istər-istəməz unutmuşdu”* cümlələri ilə təsvir edir [27, s.262]. “Göz”ü əsas obyektə çevirən müəlliflərdən biri də, Joze Saramaqodur. “Korluq” romanında“distopik” struktura müraciət edən yazıçı fiziki korluğu nəzər dairəsindən uzaqlaşdıraraq, mənanın vicdani qatına toxunur: *“...mərhəmət hissi olmayan sıradan kor olduğumuzu unutma, mehriban korların mərhəmət dolu dünyası artıq yoxdur, əvəzinə, tamamilə sərt, amansız bir kor dünyası var”* deyən personaj vasitəsilə, tarix boyunca “Hər şeyi görən göz” əsas funksional fəaliyyətindən məhrum edilir [24, s. 122].

## Nəticə / *Conclusion*

Ümumiyyətlə, “göz”ün simvolik strukturu çox qatlıdır. Mövzunun tədqiqat istiqaməti bu düşüncənin açılmasına xidmət edir. Gözün biomorfoloji etimologiyası açılaraq, tarix boyu yüklənən simvolik mənası nümunələr vasitəsilə diqqətə çatdırılır. “Göz”ün bədii-estetik düşüncə sferasında kəsb etdiyi məzmun və təqdimat aydınlaşdırılır. “Hər şeyi görən göz”ün modern düşüncədəki transformasiyaları və xüsusilə sürreal təsviri üzərində dayanılır.

## Ədəbiyyat / *References*


1. Abubakirov, N. Gazzâlî’de kalp kavramı. Yüksek lisans tezi. Sosyal Bilimler Enstitüsü Müdürlüğü. – Konya, 2009.
2. Acaroğlu, B. Kur’ân’da “Basîret” kavramı. Yüksek lisans tezi. Sosyal Bilimler Enstitüsü. – Bursa, 2020.
3. Anna Filip-Bir göz qırpımı: http://kitabyurdu.org
4. Bəxtiyar Vahabzadə – Gözün dili: https:// www.facebook.com
5. Çallı, A. Anadolu kültüründə nazar ve nazar objeleri. Süleyman Demirel Üniversitesi. Güzel sanatlar Enstitüsü. – Isparta, 2017.
6. Əhmədoğlu, A. Kitabi-Dədə Qorqud və Beuvulf dastanlarında mifik ölümsüzlük anlamı. – Bakı, 2007.
7. Ferah, N. Kalp gözü, Metafizik, Kozmoloji, Manevi hayat. Sakarya Üniversitesi İlahiyat Fakültesi Degisi. Cild: 15. – İstanbul: İnsan yayınları, 2013.
8. Gəncəvi, N. Yeddi Gözəl. – Bakı: Lider, 2004.
9. Gündaş, M. Amerikan Sinemasın’da masson sembolleri ve anlamları. İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü. – İstanbul, 2009.
10. Hacı, S. Bulgar mitolojisi üzerine bir inceleme. International Journal of Social Sciences. – Türkiye, 2021.
11. Her şeyi gören göz: gizli nlamları olan bir sembolmü? https://arkeofili.com/her-seyi-goren-goz-gizli-anlamlari-olan-bir-sembolmu/

12. http://www.dirim.com/Dirim_2015305_files/Efsane%20Avc%C4%B1s%C4 %B1.pdf
13. https://www.azadliq.org/a/16799240.html
14. Xəzan jurnalı// № 6 (37), dekabr 2021.
15. Kalafat, Y. Kamalov, İlyas. Tatar efsaneleri. Karadeniz araştırmaları, 2005.
16. Kappers, J. A. A Survey of Advances in Pineal Research. FL: CRC Press:1981.
17. Koçak, A. Karaçay-Malkar Nart Destanlarında Kaotik Varlık Olarak Emegenler. İstanbul: Aydın Türklük Bilgisi Dergisi, 2018.
18. Koroğlu. – Bakı: Lider, 2005.
19. Sevim, K. Gözün sembollik kullanımı ve Türk sanatına yansımaları// İdil dərgisi, 2019.
20. Sultanlı, Ə. “Kitabi- Dədə-Qorqud”və qədim yunan dastanları. – Bakı: Elm, 1999.
21. Şentürk, K, E. Kültürlerarası İletişim: Kabhi Khushi Kabhie Gham adlı hint filmindeki kültürel kodların incelenmesi. Selçuk iletişim, 2013.
22. Tekillik-singularity http://her-an.org/2015/02/tek-goztekilliksingularity/
23. Ujampady, M: Chowdury, Saeyd. Rashed. Hasan: Zahlilov, Eldar: Özveren, Aysun: Kutlutürk, Cemil. Tematik tasavvuf toplantıları. Fikriyat & Kişiler & Kurumlar. – Ankara: Sonçağ Akademi yayınları, 2019.
24. Ulutaş, N. Bir distopiya örneği olarak kötülük romanına sosyo-psikolojik bir yaklaşım// İstanbul: Uluslararası sosyal araştırmalar dergisi, 2020.
25. Uysal, B. Yunus Emre Divanı’nda Kalp, Dil, Hatır/Hâtır, Gönül, Yürek ve Cân Sözcüklerinin Eşdizimlilikleri//Anadolu Üniversitesi Sosyal Bilimler Dergisi. Cild: 22. Afyon, 2022.
26. Varlı, N. İslamî Bakış Açısıyla Epifiz Bezinin İşlevi. Çekmece İzü Sosyal bilimler dergisi. Cild: 8.Sayı:16. America, 2020.
27. Vesper, Y. Sema Kaygusuz’un romanı Yere düşen dualar’da gözün serüveni//Edebiyyat eleştirisi dergisi. Paris, 2016.
28. Yalçın, E. Mesnevî’ye görə İnsanî- kamîlin kalbî vasıfları // Bitlis İslamiyyet dergisi. Sakarya, 2019.
29. Васильевич, П.Н. Гдехранитсяпамять человека? Или эпифиз и символизм древне-гоегиптараскрываюттайну квантово компьютерамозга человекаи земли.Том: 14, № 4, 2018.

## Символика «глаза»: от мифа к литературе

**Вусаля Касумова**
Баку Евразийский Университет. Азербайджан.
E-mail: animechuky@gmail.com

**Резюме.** Каждый человек использует пять органов чувств в процессе познания мира. Эта стадия действительна для всего живого. Первоначальное ознакомление с окружающей средой активизируется, когда начинает функционировать «глаз». Формируются мысли о существовании Вселенной. Человек пытается понять мир как единое целое. С этой точки зрения функция «глаза» — это как бы окно открытый в мир. Зрительное восприятие того, что ощущается, помогает определить, как мы относимся к событиям и понятиям. Основная цель текста статьи – отделить «глаз» от реального уровня и вовлечь его в исследование.
Первый шаг в этом процессе начинается с раскрытия медицинской этимологии слова. В результате часть, воспринимаемая как физиологический остаток, приобретает новый смысл в

результате смены исторических периодов. Превращение «глаза» в символ связано с метафорическим переносом. Различные верования относятся к «глазу» как к божественной силе. Причина формирования мысли связана с египетским богом Солнца. Считается, что свет солнца такой же, как и свет «глаза». В суфийских верованиях «глаз» повествуется как зеркало сердца. Примеры из произведений Газали, Мовланы и Юнуса Эмре подтверждают наше мнение. В мифологическом мышлении человека через «циклопические» образы доводится до ума понимание «глаза» в негативном плане. На Востоке и на Западе к слову обращались и признавали одним из главных символов масонства. Разница между описательной силой классической и современной мысли объясняется изменением сферы употребления слова «глаз». Символическое значение слова находится в пределах человеческого воображения. Наконец, обращается внимание на то, как изменилось первобытное мышление в связи с требованиями современного мира. С этой целью обращается к творчеству художника Рене Магритта.

**Ключевые слова:** шишковидная железа, глаз сердца, циклоп, масонство, Рене Магритт